# Çoxşaxəli və davamlı inkişafın Azərbaycan modeli

## *Ölkəmizin qazandığı uğurlar dünya birliyindəki mövqeyini daha da möhkəmləndirir, reytinqini yüksəldir*

**Ümummilli liderimiz Heydər Əliyev tərəfindən ölkənin təbii resurslarının güclü elmi və siyasi, institusional əsaslar üzərində mükəmməl şəkildə səfərbər olunmasına əsaslanan özünəməxsus inkişaf modeli formalaşdırılıb. İqtisadi artımın ilk növbədə sosial problemlərin həllinə və etibarlı sosial müdafiə sisteminin qurulmasına yönəldilməsi bu modelin əsas komponentləri sırasında yer alıb.**

2003-cü ildən Azərbaycan Prezidenti İlham Əliyevin mükəmməl islahatlar kursu respublikanın iqtisadi potensialının gücləndirilməsində sürətli inkişaf mərhələsini şərtləndirməklə bərabər, yüksək sosial standartlara malik cəmiyyətin qurulmasına, sosial firavanlığın təminatına doğru mühüm addımların atılmasına zəmin yaradıb. Zəfərlə başa çatan İkinci Qarabağ müharibəsindən sonra ölkəmizin həyatında yeni mərhələ başlanıb. İşğaldan azad edilmiş torpaqlarımızın bərpası, quruculuq, inkişaf, Qarabağdan məcburi köçkün düşmüş əhalinin orada məskunlaşdırılmasının təmin olunması növbəti əsas hədəflər sırasındadır.

**(davamı 9-cu səhifədə)**

# Çoxşaxəli və davamlı inkişafın Azərbaycan modeli

## Ölkəmizin qazandığı uğurlar dünya birliyindəki mövqeyini daha da möhkəmləndirir, reytinqini yüksəldir

(əvvəli 1-ci səhifədə)

Bu hədəflərə çatmaq üçün Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə çoxşaxəli, böyük əmək, vəsait və zaman tələb edən işlər həyata keçirilir. Bütün bunlar ölkəmizin dünya birliyindəki mövqeyini daha da möhkəmləndirir, reytinqini artırır.

Bu günlərdə Aşqabadda İƏT-in Zirvə Toplantısının nəticələri Azərbaycanın sosial-iqtisadi, həm də diplomatik uğurlarının davam etdirilməsindən xəbər verir. İki ildir ki, koronavirus pandemiyası dünyanı ağuşuna alsa da, ölkəmizin sosial-iqtisadi, siyasi-mədəni sahələrdə qazandığı nailiyyətlər bir-birini əvəz edir. Nəzərdə tutulan sosial layihələrin icrasının reallaşdırılması aztəminatlı ailələrin güzəranının daha da yaxşılaşdırılmasında müsbət rol oynayıb. Bu günlərdə Soçidə keçirilmiş üçtərəfli görüşdə, ardınca, İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Türkmənistanın paytaxtı Aşqabadda keçirilən 15-ci Zirvə Görüşündə də vurğulandığı kimi, əldə etdiyimiz nəticələr xarici siyasətimizin uğurlu davamının göstəricisidir.

Dövlət başçısı İlham Əliyevin də xüsusi qeyd etdiyi kimi, hazırda dünyanın nəzəri Qarabağdadır. Ərazi bütövlüyünü bərpa etmiş Azərbaycanın dağıdılmış şəhər və kəndləri necə bərpa edəcəyi, şübhəsiz dünya dövlətlərinin, bizə dost ölkələrin də marağındadır. Biz Qarabağdayıq və bərpa işlərinə başlamışıq. Tezliklə dünya ictimaiyyəti Qarabağa Böyük Qayıdışın şahidi olacaq. Prezident İlham Əliyev tərəfindən bütün Qarabağ "yaşıl enerji" zonası elan edilib. Yaşayış məntəqələri "Ağıllı şəhər", "Ağıllı kənd" konsepsiyaları əsasında bərpa olunur. Ermənistan vaxtilə işğal altında saxladığı ərazilərimizdə çox sayda minalar yerləşdirib və həmin minalanmış ərazilərin tam xəritəsini vermək istəmir, lakin buna baxmayaraq, hazırda minaların təmizlənməsi prosesi davam edir, ardınca da bərpa işlərinə start verilir. Ərazilər minalardan təmizləndikcə, infrastrukturun formalaşdırılması həyata keçirilir. Prezident İlham Əliyev Vətən müharibəsindən sonra müxtəlif tədbirlərdə, o cümlədən işğaldan azad edilmiş ərazilərdə yerli ictimaiyyətin nümayəndələri ilə görüşlərində dəfələrlə bəyan edib ki, Qarabağı cənnətə çevirəcəyik. İşğaldan azad olunmuş ərazilərdə görüləcək bütün işlərdə dost ölkələrin şirkətləri də çalışacaq. Artıq bir sıra ölkələrin tikinti təşkilatları Qarabağda şəhərsalmanın planlaşdırılması, zəngin tarixi-memarlıq irsimizin bərpası və yenidənqurma işlərində iştirak etməyə dəvət olunublar.

Bölgədə üç beynəlxalq hava limanı olacaq ki, iqtisadiyyatda bu amil özünəməxsus rola malikdir. Qarabağın işğaldan azad olunmasından sonra sürətlə aparılan infrastruktur quruculuğu layihələrdən vacib hesab olunan hava limanlarıdır. Burada olan aeroportlar nəinki iqtisadi, həm də geosiyasi və geoiqtisadi baxımdan region ölkələri arasında Azərbaycanın nüfuzunu artıracaq. İlk növbədə, onu qeyd etmək gərəkdir ki, postkonflikt bərpa dövründə hava limanlarının rolu çox böyükdür. Başlıca olan səbəblərdən biri də odur ki, nəqliyyat-logistika baxımından bu bölgəyə çatdırılacaq malların, gediş-gəlişin bərpası aparılan infrastruktur, quruculuq layihələrinin və bərpa prosesinin sürətləndirilməsinə gətirib çıxaracaq. Qarabağın inkişaf strategiyasında burada olacaq turizm, aqroparklar, aqrobiznes, kənd təsərrüfatı, nəqliyyat, logistika kimi layihələr olacaq. Bu ağırlıq mərkəzlərinin birləşməsində Füzuli və Zəngilan Beynəlxalq Hava limanlarının özünəməxsus rolu olacaq. Aeroportların olması qeyd olunanlarla yanaşı, həmçinin Zəngəzur dəhlizinin də əhəmiyyətini artıracaq. Bu dəhlizin bərpası nəinki Azərbaycanın, həmçinin regionun, eləcə də Avrasiyanın bir neçə ölkəsinin maraq dairəsindədir. Zəngəzur dəhlizinin önəmi həm iqtisadi, həm siyasi, həm də tarixi baxımdan çox vacibdir və Azərbaycanın tarixinin əvəzedilməz parçası olaraq qalır. Ölkə başçısının da dəfələrlə vurğuladığı kimi, Zəngəzur dəhlizinin Azərbaycan iqtisadiyyatında çox böyük rolu olacaq. Bu dəhlizin ən vacib nüanslarından biri ondan ibarətdir ki, Zəngəzur dəhlizi nəinki Azərbaycanla Naxçıvan arasındakı nəqliyyat əlaqələrinin şaxələndirilməsinə, həmçinin Xəzər və Aralıq dənizindən başlayaraq Cənub Şərqi Asiya və Mərkəzi Asiya olmaqla Avropa arasındakı nəqliyyat-logistika xəttinin mərkəzinə çevriləcək.




"Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun qayğıları, rifahı, sağlamlığı və təhlükəsizliyi dayanır", - bəyan edən Prezident İlham Əliyevin bu tezisinin uğurla gerçəkləşdirilməsi üçün aparılan genişmiqyaslı islahatlar nəticəsində Azərbaycanda münbit sərmayə iqlimi yaradılmışdır. Aşqabad zirvə toplantısında ölkəmizin uğurlarından danışan dövlət başçısı bildirib ki, Dünya Bankının "Doing Business" hesabatında Azərbaycan 190 ölkə arasında 28-ci yerdə qərarlaşıb. Azərbaycan iqtisadiyyatına 280 milyard ABŞ dolları həcmində sərmayə yatırılıb ki, bunun da yarısı xarici sərmayədir. "Bizim strateji valyuta ehtiyatlarımız xarici dövlət borcumuzdan 6 dəfə çoxdur. Azərbaycanın xarici borcu ölkənin ümumi daxili məhsulunun, sadəcə, 17,3 faizini təşkil edir. Biz 2030-cu ilin sonuna qədər bu rəqəmi 10 faizə endirməyi planlaşdırırıq. Ötən 18 il ərzində Azərbaycanda yoxsulluq səviyyəsi 49 faizdən 6 faizə enib. Ölkədə işsizlik təqribən 6 faiz səviyyəsindədir". Azərbaycanın nailiyyətləri digər beynəlxalq qurumlar tərəfindən də yüksək qiymətləndirilir. Belə ki, "Fitch Ratings" beynəlxalq reytinq agentliyi Azərbaycanın Uzunmüddətli Xarici Valyuta emitenti reytinqini "BB+" səviyyəsində təsdiq edib.Reytinqə əsasən, Azərbaycanın xarici balans hesabatının və həmçinin borclarının az olması ölkənin iqtisadi-maliyyə sistemini gücləndirən amil kimi göstərilib. Azərbaycan "BB" reytinqini formalaşdıran 6 komponent üzrə qeyri-proporsional nəticələrə malik olsa da, ölkə bir çox komponentlər üzrə, xüsusilə Dünya Bankının "Doing Business" indikatorunda irəliləməsi ilə seçilib ki, bu da hesabatda xüsusi qeyd olunub. Hesabatda ölkənin kredit reytinqinin stabil olaraq qiymətləndirilməsi Dünya Bankı və Davos İqtisadi Forumunun hesabatlarında Azərbaycanın mövqeyinin yaxşılaşması göstəriciləri ilə uyğunluq təşkil edir. Davos Dünya İqtisadi Forumunun hesabatına əsasən, Azərbaycan hökumətin uzunmüddətli strategiyası üzrə dünyada 10-cu yerdə, ölkə rəhbərliyinin islahatlara sadiqliyi sahəsində isə 5-ci yerdə qərarlaşıb. Yenə də Davos hesabatına əsasən, Azərbaycan əhalinin elektrik enerjisinə əlçatanlıq əmsalına görə dünyada 2-ci, dəmir yolu xidmətlərinin səmərəliliyinə görə 11-ci, hava nəqliyyatı xidmətlərinin səmərəliliyinə görə 12-ci, dəniz limanları xidmətlərinin səmərəliliyinə görə 25-ci və yol infrastrukturunun keyfiyyəti baxımından 27-ci yerdədir. Bununla yanaşı, daha bir nüfuzlu "S&P Global Ratings" reytinq agentliyi də Azərbaycanın yerli və xarici valyutada uzunmüddətli suveren kredit reytinqini "BB+/B" səviyyəsində təsdiqləyib, reytinq üzrə proqnozu isə "mənfi"dən "stabil"ə yüksəldib. Azərbaycanın beynəlxalq kredit reytinqinin və reytinq üzrə proqnozunun yaxşılaşdırmasını "S&P"nin Qarabağ müharibəsinin bitməsi və üçtərəfli atəşkəs razılaşmasının imzalanması nəticəsində ölkədə ümumi təhlükəsizliyin, maliyyə sektorunun və tədiyyə balansının risklərinin azalması ilə əsaslandırıb.

Hazırda Azərbaycan Prezidentinin uğurlu siyasəti nəticəsində ölkəmizdə iqtisadiyyatın davamlı və dayanıqlı inkişafı təmin edilib. Ölkəmizdə əlverişli biznes və investisiya mühiti yaradılıb, sahibkarlıq fəaliyyəti, rəqabətqabiliyyətli və ixracyönümlü məhsul istehsalı genişlənib. Neft və qeyri-neft sektoru günügündən inkişaf edir, ölkəyə xarici və yerli investorların marağı artıb. Ölkə başçısının qarşıda duran hədəflərlə bağlı dediyi sitatı xatırlatmaq istərdik: "Biz bütün işləri ardıcıllıqla edirik və əgər son 17 illik tariximizə nəzər salsaq, görərik ki, qarşıya hədəflər qoyulurdu, hədəflər düzgün müəyyən edilirdi, biz bu hədəflərə çatırdıq və ondan sonra qarşımıza yeni hədəfləri qoyurduq. Beləliklə, həm siyasi, həm iqtisadi sahədə dayanıqlı inkişafı təmin etdik, beynəlxalq aləmdə Azərbaycanı çox böyük nüfuza və hörmətə malik olan ölkəyə çevirdik və əsas məsələmizi - ərazi bütövlüyümüzü təmin etdik".

**Mustafa KAMAL,**
**"Respublika".**